Ədəbiyyat QƏZETİ

# İraq-Türkman şairləri silsiləsindən - Əbdülxalıq Bayatlı

**Əta Tərzibaşının 13 cildlik "Kərkük şairləri" kitabı əsasında tərtib etdiyim, Prof.Dr. Sübhi Saatçının redaktəsi, akademik İsa Həbibbəyli, Dr. Mustafa Ziya və professor Şirindil Alışanlının rəyi ilə çap etdirdiyim "İraq türkman poeziya antologiyası", I cild (Bakı, "Elm və təhsil", 2019, 464 səh.) kitabından götürülmüşdür.**

## Əbdülxalıq BAYATLI

*(1930-2013)*

*Əbdülxalıq Bayatlı 1930-cu ildə Tuzxurmatunun beş kilometrliyində olan Yengicə köyündə anadan olmuşdur. Lakin o, hələ körpə ikən ailə Kərkükə köçmüşdür. Əbdülxalıq ibtidai, natamam orta və liseyi (tam orta məktəb) də Kərkükdə başa vurmuşdur. 1951-ci ildə Türkiyəyə gedərək Ankara Universitetinin Ziraət (kənd təsərrüfatı) fakültəsinə daxil olmuşdur. Burada ziraət mühəndisi (aqronom) ixtisasını almış, sonra doktora yazmış və 1958-ci ildə vətənə dönmüş, ziraət liseyinə müəllim təyin olunmuşdur. 1965-ci ildə Kərkük Petrol şirkətinin hesabına İngiltərəyə gedərək elmi işini davam etdirmiş, 1969-cu ildə elmlər doktoru elmi dərəcə alaraq vətənə qayıtmış, Bağdad Universitetində professor işləmişdir.*

*1980-ci ildə təqaüdə çıxaraq əslən türk qızı olan arvadı və uşaqları ilə İstanbula köçmüşdür.*

*Əbdülxalıq bütün şeirlərini sərbəst üsulda yazmışdır.*

*Əta Tərzibaşı Əbdülxalıq Bayatlının poeziyasını yüksək qiymətləndirərək yazmışdır:*

*"Mən əvvəllər klassik və heca vəznli şeirlərlə müqayisədə sərbəst şeiri "Özbaşına şeir" adlandırırdım. Lakin Əbdülxalıqın sərbəst şeirləri mənə başqa bir zövq verdi: Bayatlı əsərlərini zamana və zəminə görə ayarlamasını bilən usta şairdir".*

*Əbdülxalıq Bayatlı Azərbaycanda keçən əsrin 70-ci illərindən tanınır. "Kərkük şairləri" adlı məqaləmi Əbdülxalıq Bayatlı, Nəsrin Ərbil və Məhəmməd Sadiqin həyat və yaradıcılığına həsr etmişdim (bax: "Ulduz" jurnalı, 1968, №7). Əbdülxalıqın "Ay havar" və "Böyük eşq" şeirlərini də vermişdim. Sonralar Əbdüllətif Bəndəroğlu ilə birgə hazırladığım "Çağdaş İraq şeirindən seçmələr" (Bakı, "Elm", 2001) kitabında da Əbdülxalıq Bayatlının şeirlərinə geniş yer vermişdik.*

*Əbdülxalıq Bayatlı əslən türk qızı olan həyat yoldaşının xatirinə 1980-ci ildə Türkiyəyə köçsə də, Kərkük həsrəti, qürbət acısı heç vaxt onu tərk etməmiş, şeirlərində qırmızı xətt kimi keçmişdir.*

*Əbdülxalıq Bayatlı oxucuların rəğbətini qazanan, xalq arasında sevilən şair idi.*

**Qəzənfər PAŞAYEV**